

AYSEL VAQİFQIZI (AĞALAROVA)
Ə.Ağayev adına Naxçıvan şəhər
8 nömrəli tam orta məktəbin X sinif şagirdi

# SON DÖYÜŞ

*hekayə*

*2016-cı ilin aprel döyüşlərində qəhrəmancasına vuruşub şəhidlik zirvəsinə ucalan gənc zabit Qabil Orucəliyevin əziz xatirəsinə ithaf olunur*

Ötən gecənin ağırlığını hələ də üstündən atmamışdı. Hər tərəfdən səngərləri atəşə tutan erməni əsgərlərinin postlara ardı-arası kəsilməyən həmlələri isə onu tam hövsələdən çıxarmışdı. Buna baxmayaraq özündə təmkin tapıb komandanlığın verəcəyi növbəti əmri gözləyirdi. Yuxusuz və yorğun olmasına baxmayaraq silahını götürüb ön xəttə- səngərə qalxdı. Müşahidə aparan əsgər bir addım irəli çıxaraq: "Cənab leytenant, düşmən mövqelərində, əsasən də Talış yüksəkliyində erməni əsgərlərinin intensiv hərəkətləri müşahidə olunur. Deyəsən növbəti təxribata hazırlıq görürlər", - deyib son məlumatı çatdırdı.

Qabil müşahidə məntəqəsinə yaxınlaşıb durbinlə düşmən mövqelərini nəzərdən keçirdi. Qarşıda ucalan Talış yüksəkliyinə baxanda isə bir anlıq xəyal dünyası onu doğulub boya-başa çatdığı qədim Naxçıvana, hərbi liseydə, sonra ali hərbi məktəbdə təhsil aldığı günlərə və yenicə dünyaya gələn, hələ də üzünü görmədiyi oğlunun yanına apardı. Bir neçə gün əvvəl anası ilə telefonda danışdığı, nənə olduğu üçün onu təbrik etdiyi, oğluna atasının adını qoymağı bildirdiyini xatırladı.

Dərin düşüncələr içərisində təlatümlü dəniz kimi dalğalandığı bir anda telefonun zil səsi onu xəyaldan oyatdı. Dəstəyi götürüb uca səslə: "Tağım komandiri leytenant Orucəliyev eşidir", - deyərək əmrə hazır vəziyyət aldı. Telefonla verilən tapşırıqları dinlədikdən sonra: "Oldu, cənab polkovnik!" - deyərək dəstəyi yerinə asdı və sanki çöhrəsinə bir sevinc qondu. Qarşısında dayanan əsgərə baxdı və hansı bir hərəkət olarsa ona tez məlumat verilməsini tapşıraraq mərkəzə döndü.

Mərkəzə çatmaqla Qabil komanda verib döyüşçüləri ətrafına yığdı və komandanlığın döyüş əmrini onlara çatdırdı. Hər bir döyüşçünün yerinə yetirəcəyi tapşırığını təmkinlə izah etdi. Çünki komandirin üzərinə düşən vəzifələrdən biri də itki vermədən döyüşü qələbəylə başa vurmaqdır. Ona görə də tağım komandiri hərəkət istiqamətlərini bir daha müəyyənləşdirdi və son sözü isə belə oldu: "Bizi Vətən qarşısında ciddi sınaq gözləyir. İstəyirəm Talış yüksəkliyini düşmən-

dən biz azad edək. Ora öz bayrağımızı sancaq və ailəmizə qəhrəman kimi qayıdaq. Mən istəyirəm ki, oğlumu görməyə qəhrəman ata kimi qayıdım. Bu bizə Vətən qarşısında özümüzü təsdiq etməyə verilən bir fürsətdir!"

Qabilin bu sözləri döyüşçülərdə yüksək mübarizlik ruhu yaratmaqla sanki hər birini döyüşə hazırladı. Artıq hər bir əsgər son damla qanınadək döyüşməyə hazır idi. Bu vaxt telefonun zil səsi yenidən eşidildi. Qabil dəstəyi qaldıran kimi müşahidə aparan əsgərin güllə səsinə qarışan təlaşlı səsi eşidildi: "Cənab leytenant, düşmən tərəfi hücuma keçib. Bütün postlarımız atəş altındadır". Qabil müşahidə məntəqəsində dayanan əsgərin sözlərini axıra qədər dinləmədən döyüş əmri verdi. Silaha sarılaraq döyüşə başlayan əsgərlər heç nədən qorxmadan irəliyə atılıb düşmən mövqelərini mətinliklə susdurmağa başladılar. Döyüşün qızğın getdiyi məqamda Qabil yaxın silahdaşları olan baş leytenant Dədəkişiyevi, gizir İbrahimovu, müddətdən artıq xidmət edən çavuş Adilzadəni yanına çağıraraq müdafiədən düşmən tərəfə əks hücuma keçməyi əmr etdi. İlk şiddətli döyüş zamanı düşmənin bir neçə postunu ələ keçirən heyət mənfurlara aman yeri qoymadı. Erməni əsgərləri öz postlarını qoyaraq qaçır, döyüşə girişənlər isə yerindəcə məhv edilirdi. Artıq ermənilərin neçə illərdən bəri məskən saldıqları və öz gözlərində alınmaz qalaya çevirdikləri səngərləri bir-bir əllərindən gedirdi. Bu isə Qabili sevindirir və onları döyüşə daha da ruhlandırırdı. Tez-tez isə "Biz ermənilərdən qorxmamalıyıq. Ermənilər kimdir axı? Onlar qorxaq millətdir", deyərək əsgərləri irəli səsləyirdi. Bu sözlər eyni zamanda qarşısıalınmaz sel kimi əsgərlərin gücünə-güc qatır, onların qələbə əzmini daha da artırırdı.

Döyüşün taktiki cəhətdən planlı və uğurlu aparılması düşmən tərəfinin ciddi itkilər verməsi ilə nəticələnmişdi. Ona görə də bütün növ silahlardan istifadə edən düşmən mövqelərimizə ardı-arası kəsilmədən mərmi yağdırırdılar. Yaralıların və şəhidlərin olmasına baxmayaraq Qabil döyüş yoldaşları ilə düşmən qüvvələrini məhv edərək irəliləyir, ehtiyatda olan hissələr isə onları qoruyurdular. Çünki hər biri Vətənin hər qarışı uğrunda qan tökməyə, neçə illərdən bəri işğal altında inləyən torpaqları düşmən tapdağından azad etməyə gedirdi. Döyüşün belə qızğın getdiyi anda Qabil öz silahdaşları ilə dayanmaq bilmədən yüksəkliyə doğru hərəkət edirdi. Onun amalı isə torpaqları düşməndən azad edib, ay-ulduzlu bayrağımızı yüksəkliklərdə dalğalandırmaq idi. Bu amalla Qabil ən yaxın silahdaşları olan Dədəkişiyev və Adilzadə ilə Talış yüksəkliyinə doğru döyüşü davam etdirməyi qərarlaşdırdı. Yüksəkliyə gedən yol isə heç də hamar deyildi. Döyüş taktikasını yaxşı bilən və sərrast atıcı kimi ad qazanan Qabil ilk olaraq düşmən pulemiyotunu susdurdu. Sonra isə döyüş yoldaşları ilə yüksəkliyi ələ keçirməyə müvəffəq oldu. Ancaq Qabil və onun silahdaşlarına kömək çatana qədər namərd düşmən gülləsi üç silahdaşı həyatdan apardı. Son damla qanlarına qədər döyüşü aparsalar da bir aprel günündə qəhrəman Vətən oğlu kimi şəhidlik zirvəsinə ucaldılar. Bu Qabilin Vətən qarşısındakı son döyüşü oldu və son dəfə süzgün baxışları əngin Vətən səmasında dolaşdı, bir anlıq doğulduğu evləri və üzünü görmədiyi oğlunun çöhrəsi gözləri qarşısında canlandı. Doğma ocaqla vidalaşdı, oğlu ilə danışırmış kimi astadan pıçıldadı. "Bu torpağı qorumaq, uğrunda çəkinmədən ölümə getmək mənim alın yazımdır, oğul. Sənin alın yazın isə üçrəngli bayrağımızı əzəli Azərbaycan torpağı olan İrəvan qalasında dalğalandırmaqdır", - deyərək gözlərini əbədiyyətə yumdu, şəhidlik zirvəsinə ucaldı.

Deyirlər döyüşün və ölümün qovuşuğunda ildırımlar bulud yarır, yer parçalayır. Şüurların dağılan dumanları arasında bir obraz görünür: Bu, Vətən övladıdır, yurd şəhididir.